**Heydər Əliyev-90**

# O, tariximizin bir parçasıdır

***«Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdü».***

**Bülənt Ecevit.**

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev tariximizin ən şərəfli səhifəsini yaradan bir şəxsiyyətdir. Dünya şöhrətli siyasətçi cismani həyatını dəyişsə də, xalqımıza bəxş etdiyi müasir Azərbaycan, Azərbaycan dövləti yaşayır, möhkəmlənir və sürətlə inkişaf edir. Ulu öndərin xilaskar ruhu bu gün azərbaycanlıları və qurduğu Azərbaycan dövlətini qoruyur. Mənalı ömrünü millətinə, Azərbaycanın yüksəlişinə həsr edən Heydər Əliyevi milyonlarla azərbaycanlı məhəbbət və ehtiramla yad edir, xatirəsini əziz tutur. İndiki yaşlı nəsl ulu öndərlə bağlı çoxlu xatirələrlə yaşayır, gənc nəslə bu xatirələri həvəslə danışır, paylaşır, tarixi şəxsiyyəti gördükləri üçün fəxr edirlər. Qüdrətli şəxsiyyətilə seçilən, qeyri-adi siyasi istedada malik ulu öndərin ağsaqqallarla, müharibə veteranları ilə bağlayan tellər olduqca möhkəm idi. Ona hörmət bəsləyən, xidmətlərinin dəyərini anlayan hər bir yaşlı azərbaycanlı ümummilli lider Heydər Əliyevi bu gün öz ailəsində, həyatında görür, hiss edir və yoxluğunu dərk edir.

Xalqımızın xilaskar oğlu Heydər Əliyev istər Sovet Azərbaycanının, istərsə də müstəqil və suverən Azərbaycan Respublikasının rəhbəri olduğu illərdə də xalqımızın adət və ənənələrinin qoruyucusu və gənc nəslə ötrücüləri olan ağsaqqallara dövlət səviyyəsində qayğı göstərmiş, onlara ölkənin ictimai-siyasi həyatında və dövlət idarəetmə strukturunda fəal iştirakına münbit şərait yaratmışdır. O, bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirmişdir. Böyük rəhbərin şəxsi təşəbbüsü ilə respublikamızdan minlərlə ağsaqqal həm Sovet İttifaqının, həm də müstəqil Azərbaycan dövlətinin ən nüfuzlu ali mükafatları ilə təltif olunmuşdur. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizdə ağsaqqallar hörmət və nüfuz sahibi olublar. Hər zaman öz müdrikliyi ilə seçilən ağsaqqallarımız Azərbaycan dövlətçiliyinin çətin günlərində öz rəhbəri ulu öndərin yanında olub, insanlara doğru yol göstəriblər. 1993-cü ilin təlatümlü günlərində də ulu öndər Heydər Əliyevi siyasi hakimiyyətə dəvət edənlərin böyük əksəriyyəti məhz ağsaqqallar idi.



Ulu öndər Heydər Əliyevin hakitmiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində ağsaqqalların rolu daha da artdı. Məhz Heydər Əliyevin sayəsində ağsaqqalların ölkənin ictimai-siyasi həyatında fəal iştirakı təmin edildi. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev ağsaqqallara böyük ehtiramla yanaşır, həmişə ağsaqqallar sözünün hikmətinin böyüklüyünə yüksək qiymət verir, onları cəmiyyətin ən fəxarətli üzvləri kimi qəbul edirdi.

Təbii ki, ağsaqqallar da bu gün dövlətin inkişaf etməsinə öz töhfələrini verirlər. Fevral ayının 16-da Bakı şəhərində keçirilən Azərbaycan Ağsaqqalar Şurasının növbədənkənar VI qurultayı da göstərdi ki, yaranandan sonra şərəfli inkişaf yolu keçən Azərbaycan Ağsaqqallar Şurası ulu öndər Heydər Əliyevin bizə qoyub getdiyi ideyaları, irsi layiqincə həyata keçirir və bu gün ölkəmizin azadlığının, suverenliyinin qorunub saxlanılmasında, müstəqilliyimizin daha da gücləndirilməsində ardıcıl iş aparır.

Eyni zamanda ağsaqqallar milli-mənəvi dəyərlərimizin qorunması, saflıq, ədalətçilik kimi yüksək insani keyfiyyətlərin cəmiyyətdə geniş yayılmasını özünün əsas vəzifələrindən hesab edirlər. Gənc nəslin mənəvi və fiziki sağlamlığına, Vətənə sədaqət ruhunda tərbiyəsinə diqqət yetirən ağsaqqallar bu istiqamətdə də əzmkarlıq göstərirlər.

Azərbaycan Ağsaqqallar Şurasının bir qolu olan Qəbələ Rayon Ağsaqqallar Şurasının dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, vətənimizin davamlı inkişafında, ictimai-siyasi sabitliyin qorunub saxlanılmasında, gənc nəslin yetişməsi və formalaşmasında müstəsna xidmətləri var. Rayon ağsaqqallar şurası tez-tez ağsaqqallarla görüşlər keçirir, onların arzu və istəklərini dinləyir,ekskursiyalar təşkil edir, rayonumuzda aparılan tikinti-abadlıq işləri ilə tanış olur, Vətən uğrunda şəhid olmuş oğullarımızın xatirəsinin yad edilməsi üçün tədbirlər keçirir.

Son illər Qəbələ özünün mühüm inkişaf dövrunu yaşayır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin nəticəsidir ki, rayonumuzun iqtisadiyyatı dinamik inkişaf edir, mühüm infrastruktur layihələr reallaşdırılır. Qəbələ sürətlə müasirləşir və əhalinin rifah halı yüksəlir.

Fərəhli haldır ki, ulu öndər Heydər Əliyev iki dəfə—1978 və 2002-ci illərdə Azərbaycanın sevimli diyarı Qəbələdə olmuş, ağsaqqallarla görüşmüş və xatirə şəkilləri çəkdirmişdir. Böyük rəhbərin şəxsi təşəbbüsü ilə rayonumuzda turizm sektoru inkişaf etmiş, yeni-yeni istehsal müəssisələri yaradılmış, təhsil, səhiyyə və mədəniyyətin, aqrar sektorun inkişafında yeni nailiyyətlər qazanılmışdır.

Dünyanın ən böyük siyasətçilərindən biri ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyini qeyd etdiyimiz ərəfədə bu gün onun yoxluğu qəlbimizi sızıltsa da, onun dühası, ruhu bizi hələ tərk etməyib. O, böyük şəxsiyyət idi, tariximizin bir parçasıdır. İtkisi də böyük itgi oldu. Bir elin, obanın, bütün bir xalqın, müasir türk dünyasının itgisi oldu. Ulu öndər dünyadan getdisə də, bütün Azərbaycan xalqına, zəkasına, bacarığına, vətəninə və dövlətinə sədaqətinə özü qədər inandığı çox qiymətli bir əmanət qoyub—sevimli Prezidentimiz İlham Əliyevi nəzərdə tuturam. Mən bir ağsaqqal kimi dövlət başçımızın fəaliyyətini çox maraqla izləyirəm. Görürəm və qürur hissi keçirirəm ki, ulu öndərin imkan tapıb görə bilmədiyi işləri o necə müdrikliklə həyata keçirir. Azərbaycanın dünyanı heyran qoyan yüksəlişinə, bölgələrin başdan-başa yenidən qurulmasına uşaq kimi sevinirəm. Bu zəfər yürüşündə doğma Qəbələnin xüsusi dəsti-xətti var. Şirvan mahalında parlaq mayak olan Qəbələnin yüksəlişinə, tərəqqisinə sevimli Prezidentimiz İlham Əliyev xüsusi qayğı və diqqət göstərir.

Biz ağsaqqallar fəxrlə deyə bilərik ki, ulu öndərin siyasi kursunu layiqincə davam etdirən cənab Prezidentimiz İlham Əliyev respublikamızın regionlarına, şəhər və qəsəbələrinə səfərləri zamanı mütəmadi olaraq ahıl vətəndaşlarla, ağsaqqal və ağbirçəklərlə görüşür, onların arzu və istəkləri ilə maraqlanır, təkliflərl ilə əlaqədar yerli icra orqanlarına lazımi göstərişlər verir.

Böyük türk dünyasının bir parçası olan Azərbaycanda 90 il əvvəl bir bahar günü, bu günümüzün tarixi böyük sərkərdə, xilaskar Heydər Əliyev doğulmuşdu. Yüz il, min il belə keçsə, ulu öndərin xatirəsini qədirbilən xalqımız heç vaxt unutmayacaq o, milyonların qəlbində daim yaşayacaqdı.

**Nazim MUSTAFAYEV,**
**rayon ağsaqqallar şurasının sədri.**

# Muzeydə tədbir

Qəbələ Tarix-Diyarşünaslıq muzeyində ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.

Xatirə tədbirini giriş sözü ilə açan muzeyin direktoru, Respublikanın Əməkdar Mədəniyyət İşçisi Xalis Məmmədov ümummilli liderin keçmiş olduğu şərəfli yoldan danışmış, ulu öndər haqqında xatirələrini söyləmişdir. Tarixi mədəni abidələrimizin qorunub saxlanmasında, bunun indiki nəslə çatdırılmasında, ümumiyyətlə muzey quruculuğu işinə qayğıda əvəzsiz liderin xidmətlərindən danışmışdır.



Muzeyin əməkdaşlarından Tahirə Şəfiyeva, İlhamə Seyidova, Çimnaz Müzəffərova, Nigar Eldarova və başqaları çıxış edərək Heydər Əliyevin zəngin irsinin toplanmasında və qorunub saxlanmasında muzeyin xidmətlərini qeyd etmiş, həmin axtarışların bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırmışlar.

Sonra muzeyin eksponat və baxış zalında Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən guşəyə baxış keçirilmişdir.

Tədbiri muzeyin direktoru Xalis Məmmədov yekunlaşdırmışdır.

**Foto və mətn**
**Səhrab UMUYEVİNDİR.**